# Dövlətçiliyin keşiyində

**Dünya miqyaslı ictimai-siyasi xadim, ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi, iqtisadi əsaslarını yaradıb, xalqın müstəqil və güclü dövlətə sahib olmaq arzusunu praktik şəkildə gerçəkləşdirmiş strateq kimi çağdaş tariximizdə əbədiyaşarlığını təmin edib, hələ sağlığında canlı əfsanəyə çevrilib.**

XX əsrin sonlarına yaxın dövlət müstəqilliyini əldə etmiş Azərbaycan xalqı üzləşdiyi bir sıra faciələri məhz ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi altında mətinliklə aradan qaldırıb, milli varlıq və idrakının, özünüdərkinin ali təzahür forması olan müstəqil dövlət ideyasını uğurla gerçəkləşdirib.

Həmin dövrdə keçmiş hakimiyyətin naşı və yarıtmaz fəaliyyəti nəticəsində hüquq-mühafizə orqanlarının üzərinə düşən qanuni vəzifələri həyata keçirə bilməməsi ictimai həyatın müxtəlif sahələrində hərc-mərcliyin baş alıb getməsinə, cinayətkar ünsürlərin mütəşəkkil fəaliyyətinə, silahlı qruplaşmaların tüğyan etməsinə münbit şərait formalaşdırmış, daxildə qeyri-sabit və təhlükəli vəziyyətə səbəb olmuşdu. Ölkədə qanunçuluğun, hüquq qaydalarının son dərəcə zəif olması, dövlət idarəçiliyinin iflic vəziyyətinə düşməsi, ayrı-ayrı siyasətçilərin "könüllü döyüşçü" adı altında qanunsuz silahlı dəstələr yaratması nəticə etibarı ilə hakimiyyətdə olan qüvvələrin iflasını daha da sürətləndirirdi.

Ulu Öndər çətinliklərə, maneələrə, dövlət çevrilişi cəhdlərinə mətinliklə sinə gərərək, təbiətin ona bəxş etdiyi fədakarlıq, mübarizlik, əyilməz iradə, dəmir məntiq kimi fövqəl keyfiyyətlərindən məharətlə bəhrələnərək, xalqı vətəndaş qarşıdurmasından, müstəqilliyi itirmək təhlükəsindən qurtardı.

Ümummilli Liderimiz Azərbaycanın perspektiv inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək sivil Qərb dəyərlərinin cəmiyyətdə tam mənimsənilməsinə, demokratik dəyərlərin daha möhkəm intişar tapmasına, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatına hər zaman xüsusi diqqətlə yanaşıb. Heydər Əliyevin "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi haqqında" 9 avqust 1994-cü il tarixli fərmanı ilə cinayətkarlığa qarşı qətiyyətli və barışmaz mübarizə tədbirləri daha da gücləndirilib, hüquq-mühafizə orqanlarının bu istiqamətdə uzunmüddətli dövr üçün fəaliyyət proqramı müəyyənləşdirilib.

Məhz Ulu Öndərin gərgin səyləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradılıb. Hüquqa və ədalətə söykənən vətəndaş cəmiyyətinin əsası qoyulub, onun təkmilləşdirilməsi prosesi uğurla davam etdirilib. Peşəkar siyasətçi çox yaxşı bilirdi ki, insanların fərdi qaydada mənafelərini nəzərə almadan ümumi topluma aid maraqları həyata keçirmək mümkün deyildir. Bu da onun müdrik, ədalətli və insanpərvər rəhbər olmasını bir daha təsdiqləyir. Ulu Öndərimiz çıxışlarında daim xüsusi vurğulayıb ki, "Dövlət iki şeydən sarsıla bilər: cinayətkar cəzasız qalanda və günahsız cəzalandırılanda". Bu sitat onun insan hüquqları və azadlıqlarına necə böyük saygı və hörmətlə yanaşdığını əyani şəkildə təzahür etdirir.

Ulu Öndərimizin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çəkib. Konstitusiyada hakimiyyət bölgüsü prinsipləri dəqiq əksini tapıb, zamanın tələbi ilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə fundamental hüquqi zəmin yaradılıb. Konstitusiyada əksini tapmış strateji məqsədlər, ilk növbədə, hüquq islahatları və insan haqlarının qorunması prinsipinin real həyatda tətbiqini zərurətə çevirib. Bu qanunda təsbit olunmuş bir sıra mühüm müddəalar məhkəmə hakimiyyətinin müstəqilliyinə ciddi təminat yaradıb, bu prinsipə əsas diqqət yetirilməklə sonrakı mərhələdə keyfiyyətcə yeni, dövrün tələblərinə cavab verən bir sıra qanunvericilik aktları hazırlanaraq qəbul edilib. Hüquq-mühafizə orqanlarının müstəqilliyinin təmin edilməsini respublikamızda həyata keçirilən hüquq islahatlarının əsas qayəsi və məqsədi kimi önə çəkən ulu öndərimiz Heydər Əliyev bu vacib vəzifəni uğurla həyata keçirmək məqsədilə 21 fevral 1996-cı il tarixdə Hüquq İslahat Komissiyasının yaradılması barədə sərəncam imzalayıb. Həmin komissiya tərəfindən hazırlanmış "Konstitusiya məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Notariat haqqında" və s. qanunların qəbulu məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası Prokurorluğunun dövlətçiliyimizin maraqlarına, qanunun aliliyinin və insan və vətəndaş hüquqlarının müdafiəsinə xidmət edən sivil və demokratik bir qurum kimi formalaşması, onun fəaliyyətinin hərtərəfli təminatı üçün qanunverici, maddi və sosial bazanın yaradılması ölkəmizdə həyata keçirilən möhtəşəm islahatların, o cümlədən məhkəmə-hüquq islahatlarının memarı - ümummilli liderimiz Heydər Əliyevin böyük qayğı və dəstəyi sayəsində mümkün olub. Ulu Öndərimiz Heydər Əliyevin qanunvericilik təşəbbüsü əsasında 7 dekabr 1999-cu il tarixdə "Prokurorluq haqqında" qanunun qəbulu qarşıda duran bu və digər vəzifələrin uğurla həyata keçirilməsinə imkan yaradıb, prokurorluq orqanlarının daha da demokratikləşməsini, onların qanunçuluğun və insan hüquqlarının aliliyinin real təminatçısına çevrilməsini təmin edib. 2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən, Azərbaycan Respublikasının Baş prokuroruna həm də qanunvericilik təşəbbüsü hüququ verilib.

Cinayətkarlığa qarşı mübarizə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, qanunçuluq, hər kəsin qanun qarşısında bərabərliyi, qərəzsizlik, faktlara əsaslanma, siyasi bitərəflik bu gün prokurorluğun fəaliyyətinin əsas prinsiplərini təşkil edir. Qanunla nəzərdə tutulmuş qaydada cinayət işi başlamaq, ibtidai istintaq aparmaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icra və tətbiqinə nəzarət etmək, məhkəmədə iddia qaldırmaq, mülki və iqtisadi mübahisələrə dair işlərə baxılmasında iddiaçı, cinayət işlərinə baxılmasında isə dövlət ittihamçısı kimi iştirak etmək, məhkəmə qərarlarından protest vermək, habelə məhkəmələr tərəfindən təyin olunmuş cəzaların məqsədinə nail olunmasında iştirak etmək məsələləri prokurorluğun fəaliyyət istiqamətlərinə aid edilib.

Azərbaycan dövlətinin banisi, ümummilli liderimiz Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə oktyabr ayının 1-i respublikamızda prokurorluq işçilərinin peşə bayramı günü elan olunmuş, onun şəxsi təşəbbüsü və rəhbərliyi altında Azərbaycan Respublikasında Prokurorluq orqanlarının yaradılmasının 80 illik yubileyi təntənəli şəkildə qeyd edilib. Prokurorluq orqanlarının yaradılmasının 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqdakı nitqində Ulu Öndərimiz demişdir: "Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda çox şərəfli, hörmətli peşədir. Mən arzu edərdim ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız. Arzu edərdim, çalışasınız ki, Azərbaycan vətəndaşı kimi, eyni zamanda Azərbaycan prokuroru kimi hörmətli, şərəfli olasınız. Azərbaycan Prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır. Buna əmin ola bilərsiniz. Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram". Həmin toplantıda ulu öndərimiz Heydər Əliyevin prokurorluğun fəaliyyətinə yüksək qiymət verməsi, ölkəmizin müstəqilliyinə, dövlətçiliyinə sədaqətinə görə təşəkkür etməsi hər birimizin üzərinə daha böyük məsuliyyət qoyub. Azərbaycan Respublikası Baş Prokurorluğunun mühüm strukturlarından olan Hərbi Prokurorluq orqanları öz fəaliyyətində daim Ulu Öndərimizin hüquqi dövlət və vətəndaş quruculuğu ilə bağlı ali ideyalarını rəhbər tutmaqla, qanunvericiliklə müəyyən edilmiş səlahiyyətlərini lazımi səviyyədə həyata keçirməyə, Silahlı Qüvvələrdə və qanunvericiliyə uyğun yaradılmış başqa silahlı birləşmələrdə qanunçuluğun, nizam-intizamın tam bərqərar olmasına çalışır. Hərbi Prokurorluğun fəaliyyətinin əsas qayəsi Azərbaycan Ordusunda möhkəm intizamın mövcud olmasına tam nail olmaq, hərbi cinayətlərə qarşı mübarizəni daha da gücləndirmək, habelə cinayətkarlığa qarşı preventiv tədbirlər həyata keçirmək, hərbi qulluqçuların hüquq və azadlıqlarının etibarlı müdafiəsini təmin etməkdir. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu sahəsində həyata keçirilən kompleks tədbirlərin nəticəsi olaraq ölkədə hərbi cinayətlərin - fərariliyin, hərbi xidmətdən yayınma hallarının və hərbi xidmət əleyhinə olan digər cinayətlərin sayı ildən-ilə azalır.

> ***"Hüquq-mühafizə orqanlarında sağlam mənəviyyat, sağlam mühit olmalıdır. İnsanlar, yəni bu orqanlarda işləyən vətəndaşlarımız anlamalıdırlar ki, onlara xüsusi etimad göstərilib, onlar xüsusi imtiyazlara, xüsusi səlahiyyətlərə malikdirlər, onlar Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi və inkişaf etməsində xüsusi rol oynamalıdırlar. Bunların hamısı da Azərbaycanda cinayətkarlıqla, cinayətkarlığın bütün formaları ilə mübarizəni gücləndirmək, qanunun aliliyini təmin etmək, hər bir məsələnin araşdırılmasında ədalət prinsipini ən yüksək tutmaq və beləliklə də, ölkəmizdə gedən demokratikləşmə prosesini inkişaf etdirmək üçündür".***
>
> **Heydər ƏLİYEV**

Dövlətimizin başçısı, Ali Baş Komandan cənab İlham Əliyev ötən müddətdə Azərbaycan Ordusunda maddi-texniki təchizatın, döyüş qabiliyyətinin, nizam-intizamın möhkəmləndirilməsi, hərbi qulluqçuların sosial müdafiə tədbirlərinin gücləndirilməsi, şəxsi heyətdə vətənpərvərlik əhval-ruhiyyəsinin daha da yüksəldilməsi istiqamətində çoxsaylı mühüm tədbirlər həyata keçirib. Təqdirəlayiq haldır ki, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş və ciddi elmi əsaslara söykənən sosial-iqtisadi siyasət strategiyası Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş, ölkəmiz bütün sahələrdə inkişaf yoluna çıxıb.

Prezident İlham Əliyevin Azərbaycan Respublikası Prokurorluğunun 90 illiyi münasibətilə bu orqanın əməkdaşlarına ünvanladığı təbrik məktubunda deyilib: "Son illər prokurorluqda sağlam iş mühitinin yaradılması üçün ciddi işlər görülmüş, dövlətçilik, qanunçuluq prinsipləri ön plana çəkilmiş, cəmiyyətimizdə prokurorluğa ictimai etimad artmış və onun nüfuzu yüksəlmişdir. Prokurorluq orqanlarında yeniləşmə prosesi gedir, gənc kadrlar işə qəbul edilir, vəzifədə irəli çəkilir, yeni iş ruhu, canlanma və inkişaf hiss olunur. Bu proseslər dövlət tərəfindən dəstəklənir və bundan sonra da dəstəklənəcəkdir".

Bu günlərdə Azərbaycan Prokurorluğunun yaranmasının 102 illiyi tamam olur . Prokurorluq orqanları əməkdaşları Ulu Öndərimiz tərəfindən əsası qoyulmuş ənənənin sadiq davamçısı olan möhtərəm Prezidentimiz İlham Əliyevin diqqətini, qayğısını və dəstəyini daim görür və hiss edirik. Buna görə də prokurorluq işçiləri üzərinə düşən məsuliyyəti, dövlət başçısının yüksək etimadını dövlətçilik ideyalarına sədaqətlə, xidməti vəzifələrinin icrasına daim vicdanlı münasibət bəsləməklə doğrultmağa səy göstərirlər. Prokurorluq orqanlarında aparılan islahatlar, fəaliyyətimizlə bağlı qəbul edilmiş yeni qanunlar və digər qanunvericilik aktları bizi daha fəal və səmərəli çalışmağa, qanunların aliliyinin təmin edilməsi uğrunda daha barışmaz və prinsipial mübarizə aparmağa ruhlandırır.

***Ramil MƏMMƏDYAROV***
***Naxcıvan MR Hərbi Prokurorluğunun şöbə rəisi, ədliyyə mayoru***